

**Mürsəl İrəvanlı,**

Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

# Qiyamətdə istintaq

**Salman Rüşdünün "Abır" romanı əsasında**

**İŞTİRAK EDİRLƏR:**

**Salman Rüşdü – «Abır» romanının yazarı.**

**Ömər Xəyyam – klassik şair.**

**Qiyamət müstəntiqi – Helmut Kol.**

**Rüşdünün təmsilçisi.**

**Əhməd Hucani – müsəlman yazıçı.**

Hadisə axirətdə qiyamət günü baş verir. Edam kameri. «Kamerdə malyariya ağcaqanadları peyda olur, gah da gözdən itirdi. Ancaq nədənsə onlar boynuyoğun müstəntiqə həmlə etməyə tələsmirdilər. Onun başında ağ dəbilqə, əlində qamçı var idi».

Ömər Xəyyamı gətirirlər. Onun əzablardan beli bükülüb, həmişə gülər sifətindən hüzn yağır, arıqlayıb heysizləşmişdir, pərişan saçları, quyu dibinə düşmüş gözləri mütəfəkkir şairə mürur-zamanla əzab verildiyinə dəlalət edir. Müstəntiq Helmut Kol tapançanı qaldırıb, «şairin lap ürəyinə tuşlayır, atəş açır. Bu zaman bütün kameri alov bürüyür, Ömər Xəyyam huşunu itirir, yer onun ayaqları altından qaçır, dünya gözündə qaranlığa dönür».

Müstəntiq bir qədər gözləyir, şairin gözündə azacıq həyat işığı görünən kimi bu dəfə odlu sözlərlə atəş açır. Xəyyam başını qaldırır.

Müstəntiq qələm-kağızı onun qabağına itələyir.

- Günahını səmimiyyətlə etiraf etməsən, əfv olunacağına ümid bağlama.

- Hanı mənim əziz anam? Anamı görmək istəyirəm, - Xəyyamın səsi kallaşır, heyrət içindədir, sanki yeniyetmə oğlandır.

Müstəntiq fınxırır:

- Altmış beş yaşı var, amma özünü uşaq kimi aparır. Cərənçilik eləmə, vaxtım yoxdur, polo oynamağa gedəcəyəm.

Xəyyam:

- Düz sözünüzdür? Məni əfv edə bilərlər?

Müstəntiq əda ilə çiynini çəkir:

- Hər şey ola bilər. Allah böyük qüdrət sahibidir. Sən tezliklə buna inam gətirəcəksən.

Yazıçı:

- Cənab müstəntiq, icazənizlə deyim: bu sözləri dilinizə gətirməkdən qorxmursunuz?

Müstəntiq:

- Mən hüquqi-kaniləm, kimdən qorxmalıyam?

***- Rüşdüdən, o ki kafirdir, Allah-Təalanın müqəddəs kəlamlarını inkar edir.***

***- Suss!***

***- «Şeytan ayəsi» çoxdan faş olub. İslam ölkəsi Rüşdünün ölümünə hökm verib.***

***- Ələ keçməyib ki: əlində oğurluq şey tutmasan...***

***- Yazdığı kitab əşyayi-dəlil deyil?!***

***Xəyyam başını qaldırıb, zənlə yazıçıya baxır və mərhəmətli bir səslə:***

***- Siz kimsiniz? Sizi kim mənə vəkil göndərib?***

***Yazıçı:***

***- Mən Allah bəndəsiyəm. Haqqı sübuta yetirmək üçün gəlmişəm.***

***- Haqqı?***

***- Bəli, haqqı!***

Müstəntiq acıqla:

- Qiyamət çağı vəkil zad məsləhət görülmür. Sus, yoxsa səni də...

- Mənim günahım var, bəli! «Şeytan ayəsi» yazılanda mən müqəddəs peyğəmbərimizə, vəhjlə Allahın sözlərini bəşərə çatdıran Məhəmməd Mustafaya şər dediyinə görə onu – Salman Rüşdünü ifşa etmişdim. O zaman ateistlər bunu çap etdirməyə imkan vermədi.

Xəyyam:

**Sən könül qırmağa**
**eyləsən adət,**
**İnsan incitməyi**
**bilsən səadət,**
**Ağlın matəmində**
**otur, ey nadan!**
**Bil ki, əskik deyil**
**səndən rəzalət.**

Müstəntiq:

- Susss!

Xəyyam:

- Məni əfv edəcəyinizə əmin ola bilərəmmi?

əsr bundan qabaq bu işgəncələrə tab gətirmədi. Zəhər içib, özünü intihar etdi. Bilirsiniz niyə? Bütün zəmanələrin və bütün xalqların dahisi Sokrat inanırdı ki, yaxşı adamlar yaşadıqları zamanda da, öləndən sonra da onlara heç bir pislik üz verməz, çünki Allah daim onları himayə edir. Mən isə nə o dünyaya inanmışam, nə bu dünyaya.

Müstəntiq:

- Gördünüz, şahid oldunuz, Xəyyam özü günahlarını boynuna alır, bu sözləri ki, zorən dedizdirmirik ona.

Xəyyam gülür:

- Axı təqsirim nədir? Mən şairəm, dinim-imanım da şeirdir.

- Rüşdü də sənin kimi roman yazmağı özünə din qəbul edə bilməzmi?

Yazıçı:

- Yazsın. «Şeytan ayəsi» ilə ürəyi soyumadı, siçovul kimi gizlənmədiyi zibillik qalmadı, qıllı qoltuq qalmadı sığınmamış olsun. Nəyə, kimə güvənir?! «Abır» romanında ağlını itirib, dünyanın böyük simalarına - böyük sərkərdə Makedoniyalı İsgəndərə, müqəddəs Ərafat dağına, İslamabad sakinlərinə... dilə gətirilməsi mümkün olmayan ayıb sözlər söyləyir.



- Düz də eləyiblər. O ateistlər xalis Allah adamı imişlər. Peyğəmbər özü kafirlərə lənət söyləməyi rəva bilməyib. Onun kəlamı yadındadırmı: «Bir qəzada Rəsulullahdan rica edirlər ki, bir dua buyursun ki, kafirlər məhv olsun". Peyğəmbər deyib:

- Sən qələmi götür, etirafını yaz.

«Axı mən nə Yazım? - Ömər Xəyyam fikirləşir və qələmi əlinə alır. - Mən çox şey boynuma ala bilərəm: doğma ev-eşiyimi atdım, acgözlük etdim. Sərxoşluğa qurşandım. Sehrbazlıqla məşğul oldum.

- Rüşdünün buyruğu ilə siz məni tamamilə xəbərsiz olduğum şeylərdə günahkar hesab edirsiniz və istəyirsiniz ki, mən bunları etiraf edim. Etdim. Dediklərimə inandınız?! Mən bütün Şərqin heyran olduğu Xəyyam, gözəlləri qoyub, ağzından süd

**- Yazsın. «Şeytan ayəsi» ilə ürəyi soyumadı, siçovul kimi gizlənmədiyi zibillik qalmadı, qıllı qoltuq qalmadı sığınmamış olsun. Nəyə, kimə güvənir?! «Abır» romanında ağlını itirib, dünyanın böyük simalarına - böyük sərkərdə Makedoniyalı İsgəndərə, müqəddəs Ərafat dağına, İslamabad sakinlərinə... dilə gətirilməsi mümkün olmayan ayıb sözlər söyləyir.**
**- Yazıçı sərbəstdir...**
**- Salman Rüşdü də ancaq ürəyini boşaltmaq üçün qələm əhlini az tanımır. Amerika yazıçısı Selincer budur, qırx ildir ki, gündəlik yazır, ancaq qələmə aldıqlarını hamıdan gizlədir. Son kitabını yazmasından on illər keçməsinə baxmayaraq, tək bircə müsahibə verib. Nə üçün kitabını çap, etdirmədiyini xəbər alanda deyib: fikirləşirəm ki, əsəri çap etdirməsəm, qulağım daha dinc olar. Salman da belə, edə bilməzdimi?**

«Mən lənət etmək üçün, insanların əzab çəkməsi üçün göndərilməmişəm. Mən hər kəsə yaxşılıq etmək, insanları Allah hüzuruna qovuşdurmaq üçün gəlmişəm. Allah mənə bunları buyurub: «Səni rəhmət, yaxşılıq üçün göndərdik» deyib.

Yazıçı:

- Bəlkə Rüşdü buna güvənib, müqəddəs ruhları incitməkdən çəkinməyib. Ona inam gətirib ki, Allah - ümmətindən birinin də cəhənnəmdə qalmasına razı olmaz.

- Siz hardan bura varid oldunuz? Qiyamət məhkəməsinə müdaxilə etməyə sizə kim haqq verib?

- Mən yazıçıyam. Bu yüksək ada ləkə salan bir şəxsi haqq yoluna dəvət etmək məqsədilə bura gəlmişəm.

- Salman Rüşdü özü bu istintaqı mənə həvalə edib. Mən onun iradəsini yerinə yetirirəm. «Şeytan ayəsi» onun ürəyini soyutmayıb, «Abır» romanını yazıb. Əsas qəhrəman də Ömər Xəyyamdır.

- Biz istərdik ki, Xəyyama sərbəst danışmaq, öz sözünü demək imkanı verilsin.

- Desin!

Cavan qızı yoldan çıxartdım, öz arvadımla bir yatağa girmədim. Qoz ləpəsi yeməkdə həddimi bilmədim. Oğlanların başına sığal çəkdim, azyaşlı, üstəlik ağıldan kəm qızlara meyl saldım, qardaşımın ölümünün qisasını ala bilmədim. Düzdür, o, məni tanımırdı. Yad adamın intiqamını almaq çətindir. Etiraf edirəm: mən, qohum-əqrəbaya yad gözüylə baxmışam...».

***- Sən bağışlana bilməzsən! – Helmut Kol tapançanı qaldırıb yenə Ömər Xəyyama tuşlayır.***

***Yazıçı (oxuculara xitabən):***

***- Sübuta ehtiyac yoxdur belə ki, Ömər Xəyyamın qiyamət günü belə keçməyib. Avam adamlar belə inana bilməzlər buna...***

***Əlbəttə, bu, namərd, nadan yazıçı təxəyyülüdür. Ey böyük ustad, (Xəyyama), dayan, qəddar hökmdarların, vəhşi nadanların zəhmi, məkri qarşısında öz sözündən dönmədin. Özünə böhtan söyləmə! Sənə əzab-əziyyət veriblər, incidiblər, sən axı həqiqət mücəssəməsisən, bir ölümə görə...***

Xəyyam:

- Bəs Sokrat? O dahi iyirmi dörd

iyi gələn dörd qız uşağına meyl salardım, onları... sonra da başlarını üzüb məhv edə bilərdimmi?! Bu, Allahın inam və mərhəmətindən suiistifadə deyilmi?!

Müstəntiq:

- Salman Rüşdü islam dinini qəbul etmişdi. Xəyyam isə Tanrısına təpik atmışdı... Ona görə...

Yazıçı:

- Düz demirsiniz, bu, böyük şairə iftiradır! Hər hansı bir dini neçə kərə qəbul etmək hər kəsin öz işidir. Biz tarixdə iki belə Salman tanıyırıq: Birinin haqqında bizim böyük şairimiz də yazıb - Seyid Əzim: «Məgər Salman deyildi İsfahan atəşpərəsti?». Bu o Salmana işarə idi ki, Həzrəti Məhəmmədin qohumlarından idi. Əvvəlcə atəşpərəst, sonra xaçpərəst olub və nəhayət, müsəlmanlığı qəbul etmişdi.

Müstəntiq:

- Nə demək istəyirsən? Salman Rüşdü Məhəmmədin qohumunun yolu ilə getməliydi, islamı qəbul edəndə yaxşıydı, ondan üz döndərəndə pis?!

Xəyyam:

- Yazıçı sərbəstdir...

- Salman Rüşdü də ancaq ürəyini boşaltmaq üçün qələm əhlini az tanımır. Amerika yazıçısı Selincer budur, qırx ildir ki, gündəlik yazır, ancaq qələmə aldıqlarını hamıdan gizlədir. Son kitabını yazmasından on illər keçməsinə baxmayaraq, tək bircə müsahibə verib. Nə üçün kitabını çap, etdirmədiyini xəbər alanda deyib: fikirləşirəm ki, əsəri çap etdirməsəm, qulağım daha dinc olar. Salman da belə, edə bilməzdimi?

- Yox!

***- Vallah, bütün dünya oxucularını demirəm, təkcə kuzəyə dönmüş Xəyyam pəriləri bundan xəbər tutsalar, cana gələr, dirilər və namərd yazıçını, başını quma yox, lap div kimi himayədarlarının qoltuğu altına soxmuş olsaydı belə, oradan çəkib çıxarar: «Abır» üçün min dəfə «ayıb olsun sənə!» deyərdilər və hələ sərkərdə İsgəndəri demirik, o min dəfə qılıncdan keçirərdi onu, müqəddəs Ərafat dağı onu zindanı altına salıb əzişdirərdi. İslamabad sakinləri isə onu şişə taxardılar... Adlarını təhqiramiz məqamda çəkdiyinə görə atəşpərəstlərin ən yüngül cəzaları bu olardı: öz ədalətləri ilə əvvəlcə onu öküz sidiyi ilə yuyar, sonra...***

Müstəntiq:

- Siz Rüşdü barədə narahat olmayın. Romanı oxumusunuz?

- Bəli. Bu sətirləri yadınıza salın: «Zülmət önündə insanda güclü bir fikir oyanır: qaçmaq. Onu təhdid edənə arxa çevirib var gücü ilə qaçmaq. Arxadan tufan gəlirsə, qaçmaqdan başqa çarə yoxdur».

Yazıçı:

- Əhsən, heç olmasa bir iri həcmli romanda iki cümləni haqqına deyib. Ancaq... Onu izləyən tufan təkcə Şərqdən gəlmir. Bütün qitələrdə gen-gedə böyük rəvac tapan İslam aləmi, eləcə də Ömər Xəyyamı öz dahi şairlərindən ayırmayan avropalılar, o cümlədən ingilislər... ondan üz döndərib axırına çıxacaqlar. Haqdan qaçmaq mümkün deyil.

Müstəntiq:

- Qiyamət gününün istintaqı davam edir. Müttəhim Ömər Xəyyam, yazdıqlarıma imza at, səni ölüm cəzasından ancaq bu, mühafizə edə bilər.

Xəyyam:

- Sizə mənim etirafım lazım deyil, indiyədək mənim bir əlyazmam da ələ keçməyib, sizin Rüşdüyə bu imza ona görə lazımdır ki, imzamı - əlyazmamı satsın, milyonlar qazansın. O elə dinini də buna görə dəyişib, şeytan romanını da ona görə ərsəyə çıxarıb.

Yazıçı:

- Mən bəşər adından elan edirəm: Xəyyamın istintaqı dayandırılsın və Salman Rüşdünün mühakiməsi başlansın. Bu, Allaha da xoş gedər, bəndəyə də.

*İqtibaslar «İnostrannaya literatura» jurnalında dərc edilmiş «Abır» romanından götürülüb*